# Qələbən mübarək, şəhidim!

*Zaman ötdükcə fəsillər dəyişir, günlər ayları, aylar illəri, illər əsrləri, əsrlər minillikləri əvəz edərək tarix olur. Bu illər ərzində bir çox hadisələr baş verir ki, müəyyən dövrdən sonra yaddaşlardan silinir. Lakin elə tarixi hadisələr də var ki, heç vaxt unudulmur. 44 günə yazılan şanlı Zəfər Tariximiz kimi...*



Həmin günlər yaddaşlara əbədi həkk olundu. Müzəffər Ali Baş Komanda İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun əks-hücum əməliyyatı Böyük Qələbəmizlə başa çatdı. 30 ilə yaxın həsrətdən sonra ərazi bütövlüyümüz bərpa olundu. Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə ölümü gözə alan gənclərimiz müqəddəs amal uğrunda şəhid olursa, bu, Vətəninə, torpağına bağlı qəhrəmanlar yetişdirən xalqımızın böyüklüyüdür. Dövlət, xalq və ordu birliyi dəmir yumruq olub düşmənin başını əzdi. Mərd oğullarımız tarix yaza-yaza tarixə yazıldılar. Onlar qələbəni tarixin səhifələrinə öz qanları ilə həkk etdilər. Bu müqəddəs yolda canlarından keçərək şəhidlik zirvəsinə ucalanlar, gələcək nəsillərə örnək olacaq ömür yadigar qoydular. Tarixin bütün səhifələrində Vətənimizi yağılardan mərdliklə qoruyan, torpaqlarımızın azadlığı uğrunda cəsarətlə döyüşən qəhrəman əcdadlarının haqq savaşını zəfərlə başa vurdular. Qarabağımızı azad edərək illər boyu bu yolda, bu amal uğrunda şəhid olan bütün soydaşlarımızın ruhlarını şad etdilər.

Qərinələr ötür, nəsillər bir-birini əvəz edir. Lakin bizə qələbə sevinci bəxş edən şəhidlərimiz, torpaq uğrunda canından keçən oğul və qızlarımız heç vaxt unudulmurlar. Ən ali, müqəddəs və şərəfli zirvə olan şəhidlik zirvəsinə yüksələnlər aramızda olmasalar da, ürəklərimizdə hər zaman yaşayırlar. Qısa, amma şərəfli ömür yaşayan, Vətəni qibləgah edən şəhidlərin hər birinin döyüş yolu bir əfsanə, bir dastan, bir tarixdir...

Vətənpərvərliyin ən ali məqamı şəhidlikdir. Şəhidlik zirvəsi isə hünər və qeyrət simvoludur. Gənc ömrünü doğma vətəninə calayan, haqqın dərgahına ucalan hər bir şəhid bizə doğmadır. Müqəddəs vətəndə uyuyan hər bir şəhidimizin öz ünvanı, öz taleyi, öz həyat hekayəsi var. Bu ucalığa yüksələnlərin ömür yolu qısa olsa da, şərəfli və örnək sayılır. Belə şərəfli ömür sahiblərindən biri də şəhadətindən 3 il ötən Orxan Hüseynovdur.

Baş leytenant Orxan Bəhmən oğlu Hüseynov 25 iyul 1991-ci ildə Bakı şəhərində dünyaya göz açıb. Əslən Qərbi Azərbaycandan olan Orxan Hüseynov 1997-ci ildə Cavanşir Rəhimov adına 146 saylı orta məktəbə daxil olub, 2008-ci ildə isə həmin məktəbi bitirdikdən 1 il sonra Heydər Əliyev adına Hərbi Akademiyaya qəbul olub. 2013-cü ildə akademiyanı yüksək fərqlənmə diplomu ilə bitirib, 2013-2014-cü illərdə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində təkmilləşdirmə kursu keçərək, ixtisasını daha da mükəmməl səviyyəyə çatdırıb və 2014-cü ildə Qusar şəhəri N saylı hərbi hissədə tağım komandiri kimi hərbi qulluğa başlayıb. Xidməti ilə həmkarları və rəhbərliyinin rəğbətini qazanan, yüksək nailiyyətlərinə görə fəxri fərmanlarla təltif olunan Orxan Hüseynov 2017-ci ildə Tərtər rayonunda yerləşən, az sonra isə Yevlaxdakı N saylı hərbi hissəyə təyinat alıb və son gününə kimi burada qulluğa davam edib.

Həmin payız günü - sentyabrın 27-i Azərbaycan tarixinə yeni səhifə açıldı, İkinci Qarabağ müharibəsi başlandı. Və həmin payız günü baş leytenant Orxan Hüseynovun taleyinə ilk və son döyüş günü kimi yazıldı. Həmin bir gündə onun bir komandir kimi nələri bacardığını Orxanın bir özü bildi, bir də silahdaşları...

Azərbaycan Ordusunun baş leytenantı Orxan Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsində bölük komandiri kimi iştirak edib. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Orxan Hüseynov 27 sentyabr 2020-ci ildə Suqovuşanın azad edilməsi uğrunda döyüşlərdə - Tərtər rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirən zaman həlak olub.

Orxan Hüseynov hərbi anda sadiq olan, xidməti vəzifələri və döyüş tapşırıqlarını vicdanla yerinə yetirən, xalqın, dövlətin marağını öz şəxsi marağından, mənafeyindən qat-qat üstün tutan əsl komandir idi.

Yer üzündə baş vermiş savaşların tarixi göstərir ki, düşməni zəbt etdiyi torpaqlardan Vətənin igid oğulları qovub çıxarır. Düşməni işğal etdiyi torpaqdan çıxaran Orxan kimi oğulların Böyük Qələbəyə yolu odlu-alovlu sənqərlərdən, ölümün gözünə dik baxan igidliyindən, canından-qanından, şəhidliyindən keçib gedirdi...

Dünyaya gəlişinə bir ailə sevinmişdi. Dünyadan gedişinə bütün Azərbaycan xalqı kədərləndi. Şəhadətə qovuşan qəhrəman Orxan Hüseynov ailə üzvlərinə mükafatların ən böyüyünü, fəxri adların ən şərəflisini bağışladı: Şəhid anası, Şəhid atası, Şəhid qardaşı, Şəhid yoldaşı, Şəhid övladı... Məhz bu şərəfli və fəxarətli adın işığında valideynləri, yeganə qardaşı, iki oğul övladı cəmiyyətdə sayılıb-seçilən insanlar cərgəsində yer alıb, hörmət və ehtiramla qarşılanırlar. Bu adın işığı onların bundan sonrakı ömür yollarını daim mayak kimi aydınladır, bu adın əzəməti onların hər birinə yaşamaq üçün güc verir. Orxan Hüseynovun 2 oğul övladı - Muradı və heç üzünü görmədiyi, atasının ölümündən sonra dünyaya gələn, atasının adını daşıyan balaca Orxanı atalarının qəhrəmanlığını hələ yaşa dolduqca öyrənəcəklər.

Ölümündən sonra Orxanı tanıyan hər kəs onun Suqovuşanda göstərdiyi qəhrəmanlığından danışırdı. Döyüş yoldaşları hələ də inana bilmirdilər ki, belə bir oğul aralarında deyil. Onun haqqında keçmişdə danışmaq olmaz. Şəhid olduqdan sonra tərxis olunan əsgərlərdə onun evini və qəbrini ziyarət edib, komandirləri haqda xoş xatirələrini bölüşdülər. Onların dediyinə görə, Orxan onlara komandir deyil, dost və böyük qardaş olub. O, heç bir əsgərin haqqına girməz, heç kimin xətrinə dəyməzdi. Lazım gəldikdə intizamlı və zabit əzmini də göstərə bilirdi. Ancaq əsgərlər ondan heç vaxt incimirdilər, çünki sərt üzünün arxasında sadə mehriban bir insanın varlığını bilirdilər. Müharibənin ilk günündə onun rəhbərliyi ilə əsgərlərimiz döyüş bölgəsində şücaət göstərərək Suqovuşanın azad olunmasında 12 düşmən postunu ələ keçirib. Orxan özü isə bir neçə yaralı əsgərini minalı sahədən çıxarıb və partlayış nəticəsində çoxlu sayda qəlpə yarası alaraq şəhidlik zirvəsinə ucalıb.



Hələ sağlığında "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalına layiq görülən Orxan Bəhmən oğlu Hüseynov ölümündən sonra Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda" medalı, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Suqovuşanın azad olunmasına görə" medalı ilə də təltif edilib.

Şəhidin adının əbədiləşdirilməsi üçün Suraxanı rayonunda bulaq xatirə-abidə kompleksi inşa olunub. Suraxanı rayonu İcra Hakimiyyətinin təşkilatçılığı ilə həyatı, keçdiyi döyüş yoluna həsr edilmiş "Savaş üçün doğulanlar" sənədli filmi ictimaiyyətə təqdim edilib. Sənədli filmin çəkilişləri Orxan Hüseynovun təhsil aldığı orta məktəbdə, ailəsində, xidmət etdiyi hərbi hissədə və döyüşdüyü - şəhadətə yüksəldiyi Suqovuşan ərazisində aparılıb.

Vətən sevgisi beşikdən, ana laylasından, ailədən başlayır. Xalqımızın üzləşdiyi faciələr zamanı ən çox kövrələn, vaxtından əvvəl saçları ağaran, yaraları köz bağlamayanlar da analardır. Azərbaycan bütün şəhid anaları qəhrəman analarıdır. Onların hər birinə sayğı və ehtiram Azərbaycan vətəndaşı olaraq hamının borcudur. Çünki şəhid analarının canından can qopub, bu Vətən üçün əziz övladlarını qurban veriblər. Heç kimsə ana qədər övlad itkisini, ağrı-acısını duya, bu dərdin ağırlığını da heç kimsə ana qədər hiss edə bilməz. Övlad acısı dərdlərin ən böyüyü, ən ağırlısı, ən çarəsizidir. Şəhid analarının oğul dərdi, bala iztirabı ölçüyə gəlməz, bunun gerçək boyutlarını heç bir qələm təsvir etmək qüdrətində deyil. Şəhid analarına və atalarına hər birimiz borcluyuq. Çünki bu valideynlərin övladları sayəsində torpaqlarımız geri, bizim olan bizə qayıtdı!

Hər bir Azərbaycan vətəndaşı qürur mənbəyimiz olan şəhidlərimizi, onların keçdiyi həyat yolunu nümunə bilməli, qəhrəmanlarını tanımalı və tanıtmalıdır. Bu mübarizədə şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onları gəncliyə nümunə göstərmək hər kəsin vətəndaşlıq borcudur.

Şəhidlər ölməz, unudulmaz! İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər. Şəhidlərin davamçısı varsa, xatirələri hər yerdə anılırsa, deməli, onlar ölməyib, ürəklərdə daim yaşayırlar. Hər birimizin vətəndaşlıq borcudur ki, şəhidlikləri ilə bizə qələbə sevinci yaşadan bu oğullarımızı daim qəlbimizdə yaşadaq. Şəhidlər vurulanda yox, unudulanda ölür...

*Gizlət, görməsinlər qoy göz yaşını,*
*Uca tut hamıdan məğrur başını.*
*Yenilməz, cəsur qardaşımı,*
*Sən doğmusan, ey Şəhid anası!*

*Fəxrlə söylə oğlum Orxan,*
*Dincəlmədi, dayanmadı bir an.*
*Düşmənin canına qorxu salan,*
*Cəngavəri sən doğmusan,*
*ey Şəhid anası!*

*"Vətən sağ olsun!", deyib*
*candan keçəni, Şəhidliyin*
*badəsini içəni,*
*Bu dünyadan qəhrəmantək köçəni,*
*Sən doğmusan, ey Şəhid anası!*

*Şəhadətin mübarək,*
*gözəl qardaşım!*
*Səninlə həkk oldu zəfər yaddaşım.*
*Qalib xalqız, artıq ucadır başın,*
*Fəxr et oğlunla, ey Şəhid anası!*

Ruhun şad olsun, Orxan, öpüb and içdiyin o üçrəngli bayrağın kölgəsində rahat uyu. Artıq bayrağımız Xankəndində, Xocalıda və Ağdərədə də dalğalanır. Qarabağ azaddır, bunda sənin də böyük payın var. Sən vəzifəni layiqincə yerinə yetirdin. Şəhidlər ölmür, səndə əbədi yaşayacaqsan!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Ramidə ABBASOVA**
**AMEA, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu**